

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Fevral 2020

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# "HÖRMƏTLİ PREZİDENT BİR MÜDDƏT BUNDAN ÖNCƏ QARŞIYA HƏDƏF QOYMUŞDUR Kİ, TİCARƏT DÖVRİYYƏSİ 15 MİLYARD DOLLARA ÇATSIN. HESAB EDİRƏM Kİ, BU, MÜMKÜNDÜR."

Azərbaycan Respublikası Prezidenti
cənab İlham Əliyev
və Türkiyə Cümhuriyyəti Prezidenti
Cənab Rəcəb Tayyib Ərdoğanın
25 fevral tarixli birgə bəyanatdakı nitqindən



"İqtisadi sahəyə gəldikdə, əziz qardaşım, hörmətli Prezident bir müddət bundan öncə qarşıya hədəf qoymuşdur ki, ticarət dövriyyəsi 15 milyard dollara çatsın. Hesab edirəm ki, bu, mümkündür. Çünki keçən il ticarət dövriyyəmiz 33 faiz artıb və 4,5 milyard dollara çatıb. Bu gün imzalanmış sənədlər, o cümlədən preferensial ticarət anlaşması əminəm ki, ticarət dövriyyəmizin artırılmasına böyük təkan verəcəkdir.

Hazırda Azərbaycanda 4 minə yaxın Türkiyə şirkəti fəaliyyət göstərir. Türkiyə şirkətləri 300-dən çox layihədə 16 milyard dollar həcmində iş görmüşlər və bu parametrlərə görə Türkiyə birinci yerdədir. Hesab edirəm ki, qarşılıqlı sərmayə qoyuluşu da çox yüksək səviyyədədir.

Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 18 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollar sərmayə qoyub. Bu, böyük ölçüdə sərmayənin qoyuluşu bir daha bizim qardaşlığımızı təsdiqləyir. Çünki, ancaq qardaş ölkəyə bu qədər vəsait, bu qədər yatırım qoyula bilər."

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 9

2020-ci ilin yanvar ayında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 85,2 milyon manatlıq əməliyyat aparmışlar ______ səh. 13

Azexport.az portalına 2020-ci ildə yanvar ayında 42,1 mİlyon ABŞ dolları məbləğİndə ixrac sifarişi daxil olmuşdur ______ səh. 15

2020-ci ilin fevral ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 8,1 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ______ səh. 19

Beynəlxalq sərgidə Azərbaycan şirkətləri mükafata layiq görülmüşdür ______ səh. 23

Azərbaycan məhsulları beynəlxalq sərgidə böyük maraqla qarşılanmışdır ______ səh. 24

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar ayı** ərzində qeyri-neft sektoru üzrə **141 milyon** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **3,4 milyon** ABŞ dolları və ya **2,5%** artmışdır

2020-ci ilin yanvar ayı ərzində ölkəmizin ixracı **2,1 milyard** ABŞ dolları təşkil etmiş və 2019-cu ilin müvafiq dövrünə nisbətən **851 milyon** ABŞ dolları və ya **66,5 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **141 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **3,4 milyon** ABŞ dolları və ya **2,5 faiz** artmışdır.

2020-ci ilin yanvar ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısına qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – **16,3 milyon** ABŞ dolları) başçılıq etmişdir. Bu siyahıda pomidor (13,2 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (11,2 milyon ABŞ dolları) üçüncü olmuşdur.

2020-ci ilin yanvar ayında Rusiyaya **48,2 milyon**, Türkiyəyə **33,1 milyon**, İsveçrəyə **17 milyon**, Gürcüstana **8,5 milyon** və Çinə **5,9 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ildə Rusiyaya qeyri-neft ixracı 4 faiz, Türkiyəyə 31 faiz, İsveçrəyə 73 faiz və Çinə 2,1 dəfə artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (34,3 faiz), Türkiyəyə (23,5 faiz), İsveçrəyə (12,1 faiz), Gürcüstana (6 faiz) və Çinə (4,2 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Həmçinin 2020-ci il ərzində xurma, pambıq lifi (daranmaya məruz qalmamış), elektrik enerjisi, ilkin formalı polipropilen, xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen və xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilendə qeyri-neft ixracında önə çıxmışdır. Ümumiyyətlə, 2020-ci ilin yanvar ayında meyvə-tərəvəz ixracı **42 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **15,6 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **9 milyon**, pambıq lifi ixracı **10,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **9 milyon**, elektrik enerjisinin ixracı **7,7 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **3,7 milyon**, pambıq ipliyi ixracı **2,9 milyon** ABŞ dolları təşkil etmişdir.

2019-cu illə müqayisədə 2020-ci ilin yanvar ayında pambıq ipliyinin ixracı 34 dəfə, kimya sənayesi məhsullarının ixracı 34 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 33 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 30 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 16 faiz artmışdır.

MADE IN AZERBAIJAN

# 2020-Cİ İLİN **yanvar ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2020-Cİ İLİN **yanvar ayında** 2019-CU İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **ixracının artımı (Dəyəri milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI FEVRAL



# 2020-Cİ İLİN **yanvar ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI FEVRAL












| Mal | 2020 | 2019 |
|---|---|---|
| Qızıl | 16,3 | 9,7 |
| Tomat (pomidor) | 13,2 | 10,5 |
| Fındıq ləpəsi | 11,2 | 12 |
| Xurma | 10,6 | 12,6 |
| Pambıq mahlıcı | 10,3 | 11,9 |
| Elektrik enerjisi | 7,7 | 11,1 |
| İlkin formalı polipropilen | 6,6 | 4,3 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 4,4 | 0 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 4,1 | 6,5 |
| Digər | 56,4 | 59 |

## **Yanvar ayında** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

### 2018




Qızıl
**17,2**

### 2019




Xurma
**12,6**

### 2020




Qızıl
**16,3**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## **2020-ci ildə yanvar ayında** qeyri-neft sektoru üzrə **əsas ixracatçı subyektlərin reytinqi**

2020-ci ilin yanvar ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, " Land Lojistic" " MMC, "Natural Fruit" MMC, "P-Aqro" MMC, "Baku Steel Company", "Fresh Fruits Group" MMC, "Mingəçevir Tekstil" MMC, Atef Şirkətlər Qrupu" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, “ASK şüşə" MMC, "Bakı Neft Maşinqayırma Zavodu" TASC.



# 2020-Cİ İLİN **yanvar ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

## 2020-Cİ İLİN **yanvar ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**






# 2020-Cİ İLİN **yanvar ayında "Azərkosmos" ASC 1,8 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2020 İXRAC İCMALI FEVRAL



2020-cu ilin yanvar ayında "Azərkosmos" ASC tərəfindən dünyanın **20 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **79 faizini** təşkil etmişdir.




2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| Birləşmiş Krallıq | 832 min $ |
| Fransa | 653 min $ |
| BƏƏ | 109 min $ |
| Almaniya | 76 min $ |
| Gürcüstan | 45 min $ |



**2020-ci ildə yanvar ayında**
Azərbaycana gələn xaricilər
**bank kartları vasitəsi ilə**
**85,2 milyon** manatlıq əməliyyat aparmışlar

2019-cu illə müqayisədə
2020-ci ildə ölkəmizə
**18,1 faiz** çox **əcnəbi və vətəndaşlığı olmayan** şəxs gəlmişdir

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar ayında Azərbaycana dünyanın 136 ölkəsindən 226,2 min və ya 2019-cu ilin yanvar ayı ilə müqayisədə 18,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 30,0 faizi Rusiya Federasiyası, 28,2 faizi Gürcüstan, 10,6 faizi Türkiyə, 5,8 faizi İran, 3,2 faizi Səudiyyə Ərəbistanı, 2,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, hər birindən 1,8 faiz olmaqla Ukrayna və Küveyt, hər birindən 1,4 faiz olmaqla Qazaxıstan və Pakistan, 1,1 faizi Türkmənistan, 0,9 faizi İraq, hər birindən 0,8 faiz olmaqla Böyük Britaniya və İsrail, 7,7 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə 2020-ci ilin yanvar ayında gələnlərin sayında daha çox artım Səudiyyə Ərəbistanı (4,2 dəfə), İsrail (2,6 dəfə), Hindistan (80,2 faiz), Küveyt (73,3 faiz), Bəhreyn (69,8 faiz), Malayziya (62,5 faiz), Çin (54,0 faiz), Macarıstan (42,9 faiz), Belarus (29,5 faiz) və Moldova (28,6 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2020-ci ilin yanvar ayında Körfəz ölkələrindən gələnlərin sayı əvvəlki ilin eyni ayı ilə müqayisədə 21,2 faiz artaraq 34,6 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 20,4 faiz artaraq 80,9 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı isə 1,0 faiz artaraq 5,9 min nəfər olmuşdur

2020-ci ilin yanvar ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların həcmi **85,2 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

2020 İXRAC İCMALI FEVRAL

**2018**

Yanvar - **99,8**

**2019**

Yanvar - **88,3**

**2020**

Yanvar - **85,2**

3

# AZEXPORT.AZ PORTALINA 2020-Cİ İLDƏ YANVAR AYINDA 42,1 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **1 milyard 626,9 milyon** ABŞ dolları təşkil etmişdir

Azexport.az portalına 2020-ci ilin yanvar ayında **42,1 milyon** ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur. 2020-ci ilin yanvar ayı ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (15,3%), Səudiyyə Ərəbistanı (9%), Türkiyə (8,1%), Hindistan (7,2%) və Fransa (7,2%) qərarlaşmışdır.

Cari ilin yanvar ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, yumurta, pomidor, xiyar, yerkökü, kartof, tütün, şərab, çay, qənnadı məhsulu, kosmetik vasitə, gübrə, xurma, fındıq, mebel dəsti, tikinti materialı, nar şirəsi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 31 yanvar tarixinə kimi (37 ay ərzində) Azexport.az portalına dünyanın **141 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 626,9 milyon** ABŞ dolları təşkil etmişdir.

## **Azexport.az** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**






Yanvar - **42,1**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il | 2020-ci il |
| --- | --- | --- | --- |
| **CƏMİ - 475** | **CƏMİ - 514,1** | **CƏMİ - 595,7** | |



Son **37 ay** ərzindəki sifarişlərin cəmi - **1 626,9**

# 2020-Cİ İLİN **yanvar ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2020 İXRAC İCMALI FEVRAL

**Pambıq**



**Yumurta**



**Pomidor**



**Xiyar**



**Yerkökü**



**Kartof**



**Tütün**



**Şərab**



**Çay**



**Qənnadı məhsulu**



**Kosmetik vasitə**



**Gübrə**



**Xurma**



**Fındıq**



**Mebel dəsti**



# 2020-Cİ İLİN **yanvar ayında Azexport.az** PORTALINA DAXİL OLAN **ƏSAS ixrac sifarişlərinin ölkələr** ÜZRƏ BÖLGÜSÜ






4

# 2020-Cİ İLİN FEVRAL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 8,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2020-ci ilin fevral ayı ərzində fiziki və hüquqi şəxslər tərəfindən 63 dəfə müraciət daxil olunub. Ümumilikdə **98 ədəd sertifikat** (89 ədəd mənşə, 7 ədəd fitosanitar, 2 ədəd baytarlıq) verilib.

Cari ilin fevral ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **8,1 milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir.

Fevral ayında "AzərGold", "Baku Steel Company", "T. Əhmədov adına AZNAR", "Agro Export Azerbaijan", "CAN-PA", "Gilan Tekstil Park", "NALCO", "Azərtütün", "DİAMED Co", "Bioropean", "SST Maşınqayırma və Mühəndislik", "Aygünlü", "Baran Taşcan", " Van Oord Dredging and Marine Contractors", "Tahirli İnşaat", "Sheep Casing BTS" şirkətləri Mərkəzə müraciət edərək sertifikat əldə etmişlər. Qeyd olunan hüquqi şəxslər tərəfindən qiymətli metallar, alma, üzüm, nar şirələri, narşərab, nar tumu yağı, qənnadı məmulatları, pambıq iplik tullantıları, tütün, taxta qapı çərçivə hissələri, polad armatur yayması, polad boru, traktor, dəniz dibinin dərinləşdirilməsində istifadə olunan rezindən üzən boru xətti, hipoxlorit, tullantı qida yağları, duzlanmış qoyun bağırsağı, xırdabuynuzlu heyvan dərisi, çay daşları doğrayan xətt (dobrilka), qablaşdırma bükmə avadanlığı, biyan otu kökünün ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən şirkətlər arasında "AzərGold", "Baku Steel Company", "T. Əhmədov adına AZNAR", "Gilan Tekstil Park", məhsullar arasında isə qiymətli külçələr, polad armatur yayması, polad boru, meyvə şirələri, pambıq iplik tullantısı ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 21 ölkəyə- İsveçrə (60%), Gürcüstan (14%), Rusiya (13%), Qazaxıstan (4%), Türkiyə (2%), Birləşmiş Krallıq (2%), digər ölkələrə (5%)- (Ukrayna, Çexiya, Belçika, Belarusiya, İspaniya, Niderland, Malayziya, Avstraliya, Çin, Oman, İsrail, Almaniya, İraq, Səudiyyə Ərəbistanı) ixrac edilmişdir.

İxrac statistikasına nəzər yetirdikdə 2019-cu ilin fevral ayı ilə müqayisədə ixracda **2,2 milyon** ABŞ dolları dəyərində artım müşahidə olunmuşdur.

# 2020-Cİ İLİN **Fevral ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi**
# VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**











# CARİ İLİN **FEVRAL AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)



# 5

# “RƏQABƏTQABİLİYYƏTLİ VƏ İXRACYÖNÜMLÜ BİZNES PLANIN HAZIRLANMASI” MÖVZUNDA TƏLİM KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin təşkilatçılığı ilə “Rəqabətqabiliyyətli və ixracyönümlü biznes planın hazırlanması” mövzusunda maarifləndirici təlim keçirilmişdir.

Təlimin keçirilməsində məqsəd ixracatçı sahibkarları ixrac prosedurlarında olan yeniliklər haqqında, o cümlədən, yerli məhsulların xarici bazarlara çıxarılması, ixracın stimullaşdırılması və sadələşdirilməsi barədə maarifləndirmək olmuşdur.

“Onevision Business Solutions” şirkətinin direktoru Cavid Abasov tərəfindən aparılan təlim zamanı rəqabətqabiliyyətli məhsulun formalaşdırılması, ixrac üçün yaradılan mühitdən yararlanma, həvəsləndirici proqnozlara uyğun işlərin təşkili, qlobal və hədəf bazar strategiyası, markalanma siyasəti və effektiv ixracat planı mövzularına toxunulmuşdur. Daha sonra təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Təlimin sonunda iştirakçılar “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi ilə tanış olmuşdurlar.



4

# BEYNƏLXALQ SƏRGİDƏ AZƏRBAYCAN ŞİRKƏTLƏRİ MÜKAFATA LAYİQ GÖRÜLMÜŞDÜR

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan məhsulları Rusiyanın Moskva şəhərində keçirilən "Prodexpo 2020" beynəlxalq ərzaq sərgisində nümayiş olunmuşdur.

Sərgi çərçivəsində Azərbaycanlı sahibkarlar xarici həmkarları ilə görüşlər keçirilmiş, ixraca dair razılıqlar əldə edilmiş, müqavilələr bağlanılmışdır. Belə ki, "Balxurma" şirkəti qurudulmuş xurma məhsullarının Taylanda ixracına dair müqavilə imzalamışdır. Bundan başqa, "Göygöl Şərab Zavodu"nun istehsalı olan şərab və brendinin Litvaya, "Tac-Gülüstan" şirkəti mineral su və limonad məhsullarının Yaponiyaya ixracına, "Az- Granata" şirkəti Rusiyada spirtli içkilərin idxalı ilə məşğul olan şirkət ilə distributorluq müqaviləsinin bağlanmasına dair razılıq əldə etmişdir.

Sərgidə məhsulları xarici şirkətlərin və sərgi ziyarətçilərinin böyük marağına səbəb olan Azərbaycan şirkətləri - "Karaca" və "Azərstar" "Ən yaxşı müəssisə" mükafatına, "Caspian coast" şirkəti isə 1 gümüş, 1 bürünc medala layiq görülmüşdür.



# 6

# AZƏRBAYCAN MƏHSULLARI BEYNƏLXALQ SƏRGİDƏ BÖYÜK MARAQLA QARŞILANMIŞDIR

Cari ilin 17-20 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "Gulfood 2020" beynəlxalq qida sərgisi keçirilmişdir. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə süd və süd məhsulları, bal, fındıq, meyvə şirələri, qənnadı, tərəvəz və konserv məhsulları, qurudulmuş meyvə və xurma istehsalı sahəsində fəaliyyət göstərən 20 Azərbaycan şirkəti məhsullarını təqdim etmişdir.

Azərbaycan məhsulları, xüsusilə fındıq, nar şirəsi və müxtəlif çeşiddə şirniyyatlar sərgiyə gələnlər tərəfindən böyük maraqla qarşılanmışdır. Sərgi çərçivəsində Azərbaycan şirkətləri ilə xarici tərəfdaşlar arasında görüşlər keçirilmiş, ixraca dair müzakirələr aparılmışdır.

Azərbaycanın "AHEC" və "AZHAZELNUT" şirkətləri Misir, Pakistan və İtaliyadan olan şirkətlərlə fındıq məhsulunun ixracına, "Az-Granata" və "BakuKonserv" şirkətləri Birləşmiş Ərəb Əmirlikləri və Hindistandan olan şirkətlərlə konservləşdirilmiş məhsulların ixracına dair razılıq əldə etmişdir.






Gulfood 25th

16 - 20 Feb 2020
Dubai World Trade Centre

ANNIVERSARY

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

